Ordu və cəmiyyət

# "Sözün də su kimi lətafəti var"

*Dahi Nizami Gəncəvi sözü, bu anlamda şeiri - poeziyanı belə dəyərləndirirdi. 1000 ildi şeir duyğuları bu kəlamın işığında çoşdurur, düşüncələrin gerçək nizamını müəyyənləşdirir. Yüz-yüz illərdi Azərbaycan poeziyası, poeziyadan rişələnən Azərbaycan nəsri su kimi lətafəti olan sözü ucalıq mərtəbəsində saxlamaqdadı. Çağdaş poeziyamız, nəsrimiz, publisistikamız da sözün qüdrətinin cəfakeşidi...*



Hərbi Dəniz Qüvvələrində 9 Noyabr Dövlət Bayraq Gününə həsr edilən tədbiri bu düşüncələrin zəmanəti ilə izlədim - filologiya üzrə fəlsəfə doktoru, ədəbiyyatşünas, şair Gülhanə Pənah, pedaqogika üzrə fəlsəfə doktoru, yazıçı-publisist Zenfira Məhərrəmli, "Xatirə kitabı"nın baş redaktoru Nəzakət Məmmədova, şair Zəminə Xınalı Bayraq Gününü hərbi dənizçilərlə birlikdə qeyd edirdi. Qonaqların yaradıcılığıyla yaxşı tanışam, əsərlərini oxumuşam. Duyğulanmışam da, kövrəlmişəm də.

Sözə dəyər verənlərlə görüşdü bu...

Sözün şəhd-şəkərini duyğulara sərənlərlə görüşdü bu...

Sözdə ruhun işığını görənlərlə görüşdü bu...

Tədbiri birinci dərəcəli kapitan Natiq Bağırov açaraq dedi ki, əlamətdar günlərin təntənəli şəkildə qeyd olunması ənənəsi dövlətçiliyimizə sədaqətlə bağlıdı. Həm dövlətçiliyimizə, həm də sözə sədaqətli olan qadın yazarlarımızla bu görüşün hərbçi dənizçilərin vətənsevərliyini daha da yüksəldəcəyinə inanıram. Ona da inanıram ki, bu görüş qonaqlarımızın yaradıcılığını Hərbi Dəniz Qüvvələrinə də yönəldəcəkdir. Bayrağa sevgi dövlətə sevgi deməkdi. Bu tədbir bayrağa, dövlətçiliyimizə sevgi tədbiridi...

Tədbirin mahiyyəti sevgidi - Bayrağa sevgidi.

Tədbir qonaqların hərbçi dənizçilərin timsalında orduya sevgisidi...

Tədbir hərbi dənizçilərin timsalında xalqa sevgisidi...

Bu istəyin - şair istəyinin başlanğıcı hesab edirəm bu tədbiri; qonaqların səmimi fikirləri də, xatırlatma kimi dedikləri də, müharibə haqqında danışdıqları da mənə, (hamıya!) dönməz bir həqiqəti dönməzliklə yaşatdı: xalq ordunun, ordu xalqın dayağıdı, ordu xalqa güvənir, xalq ordusuna inanır (bu tədbirdə qonaqların xalqı təmsil etdiyinə zərrəcə şübhə ola bilməz!)...

Qonaqların hər kəlməsi ana sözü, şair sözü kimi dinlənildi. - Nüşabənin, Sara Xatunun, Məhsəti Gəncəvinin, Xurşudbanu Natavanın, Nigar Rəfibəylinin, Mirvarid Dilbazinin,... sözünün işığı vardı bu kəlmələrdə. Hamı bir daha əmin oldu ki, milli-xəlqi ruh yaşadılır, yaşayır, yaşadılacaq!

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Ordusunun 100 illiyinə həsr olunmuş paradda dediyi bir kəlam da qürurla xatırladıldı: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək!"

Tədbir, həm də bu inamın tədbiri kimi izlənildi...

Qonaqlar belə bir görüşə görə Hərbi Hava Qüvvələrinin komandanlığına minnətdarlığını bildirdi...

Xoş kəlam xoş ovqat deməkdi. Tədbir boyu xoş ovqat yaşanıldı...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Bayraq

Bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə qəbul edilib. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti süqut edir və Sovet hakimiyyəti qurulur. Bununla da Azərbaycan sovetlərdən asılı hala düşür.

İkinci dəfə isə bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə Muxtar Respublikanın Dövlət bayrağı kimi qəbul edilib. 1991-ci il fevralın 5-də isə bu bayrağın Azərbaycan Respublikasının Dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar çıxarılıb.

Mavi rəng qədim soydaşlarımız olan Göytürklərin simvolu olub. Bu rəng həm də türklüyümüzü ifadə edir. İlk dəfə "türk" adı isə Göytürklərin adında işlənib. Müasirlik və demokratiyanı qırmızı rəng təmsil edir.

Yaşıl rəng islamı bildirir. Bununla bağlıdır ki, Quranda cənnət yaşıl məkan olaraq bildirilib.

Aypara bir zamanlar Bizanslıların simvolu olub. 1453-cü ildə türklər Konstantinopolu fəth edərkən ayparanı islamın simvolu olaraq götürüblər.

Bayrağımız indi işğaldan azad olunmuş Cocuq Mərcanlıda, Lələtəpədə dalğalanır. Bu bayraq bir dəfə yüksəldi və bir də enməyəcək. Xalqımızın Mübarizləri, Çingizləri olduğu müddətdə o hər zaman zirvələrdə dalğalanacaq!

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun II kurs tələbəsi**